Bəyalı Xanalı oğlu Ataşov 16 iyul 1946-cı ildə anadan olmuş, 1964-cü ildə 34 saylı İmişli dəmir yolu orta məktəbini bitirmiş, 1965-ci ildə isə Azərbaycan Dövlət Universitetinin iqtisadiyyat fakültəsinə daxil olaraq 1970-ci ildə D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun (indiki Azərbaycan Dövlət İqtisad Universitetinin) uçot-iqtisadiyyat fakültəsini "Mühasibat uçotu" ixtisası üzrə bitirmişdir. Həm orta, həm də ali təhsilini o vaxt çox dəbdə olan rus dilində almışdır.

Zəngin maliyyə-uçot, istehsalat və təşkilati-idarəetmə təcrübəsinə malik olan, gənc yaşlarından elmi axtarışlara böyük maraq göstərən praktik-tədqiqatçı B. X. Ataşov 1989-cu ildə ovaxtkı Azərbaycan Respublikası Dövlət Plan Komitəsinin Elmi-Tədqiqat İnstitutunun (indiki İqtisadiyyat Nazirliyinin Elmi-Tədqiqat İqtisadi İslahatlar İnstitutunun) aspiranturasını bitirərək Tiflis şəhərində "Azərbaycan Respublikasında ət-süd sənayesinin inkişafı" mövzusunda namizədlik, 2002-ci ildə isə dissertantı olduğu Azərbaycan Dövlət İqtisad Universitetində "Azərbaycan Respublikası ərzaq kompleksinin formalaşmasının və inkişafının təşkilati-idarəetmə problemləri" mövzusunda doktorluq dissertasiyalarını müdafiə etmişdir.

Müstəqil Azərbaycanda ərzaq kompleksinin